# «Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»də, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»də, «Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında Əsasnamə»də, «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda və «Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə»də dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

«Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»də, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»də, «Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında Əsasnamə»də, «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda və «Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə»də dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2010-cu il 5 mart tarixli, 969-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»də, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə»də, «Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında Əsasnamə»də, «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda və «Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə»də dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2010-cu il 5 mart tarixli, 969-IIIQD nömrəli Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində «Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»də, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət

keçmə haqqında Əsasnamə»də, «Feldyeger rabitəsi orqanında xidmət keçmə haqqında Əsasnamə»də, «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda və «Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə»də dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2010-cu il 5 mart tarixli, 969-IIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 24 may 2010-cu il***

***№ 920***

***«Respublika» qəzetində dərc edilmişdir (28 may 2010-cu il, № 114) («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*